# Qəbələ sürətli inkişafın yeni mərhələsində

## 2015-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat məruzəsi

(Əvvəli 9-cu səhifədə).

Nazirlər Kabinetinin iclasında cənab Prezident tikinti sahəsində açıq tenderlərin keçirilməsi, bu sahədə də şəffaflığın təmin olunması, üstünlüyün daha çox yerli şirkətlərə verilməsi, paytaxt nəqliyyatının vahid sistemə keçidinin sürətləndirilməsi, ekoloji məsələlərin həlli, yeni "ASAN xidmət" mərkəzlərinin açılması və ona yeni səlahiyyətlərin verilməsi ilə bağlı tapşırıqlar vermişdir.

Çıxışının sonunda dövlətimizin başçısı 2016-cı ildə Bakıda bir neçə mötəbər tədbirin, o cümlədən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun keçiriləcəyini bildirmiş, ölkəmizin tolerantlıq ənənələrinə, mədəniyyətlər və sivilizasiyalararası dəyərlərə mühüm töhfələr verdiyini nəzərə alaraq 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2015-ci ildə rayonumuzda görülən işlər və bu işlərin yerinə yetirilməsi istiqamətində idarə, müəssisə və təşkilatların fəaliyyəti barədə Sizə qısa məlumat verdim.

2016-cı ildə qarşımızda daha mühüm vəzifələr durur.

Məruzəmin sonunda əminliklə bildirmək istəyirəm ki, Qəbələ Rayon İcra Hakimiyyəti 2016-cı ildə də yeni uğurların əldə olunması, rayonumuzun daha sürətlə inkişaf etdirilməsi istiqamətində fəaliyyətini genişləndirəcək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrinin, eyni zamanda qanunvericiliklə üzərinə düşən vəzifələrin yerinə yetirilməsinin təmin edilməsi ilə bağlı lazım gələn bütün tədbirləri həyata keçirəcəkdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

Bildiyiniz kimi yanvarın 26-da Heydər Əliyev Mərkəzində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfrans keçirilmişdir.

Dövlət başçısının konfransdakı çıxışı bir daha göstərdi ki, xalqla hakimiyyət arasında səmimi inam var. Glkə vətəndaşları hökumətə, Prezidentinə inanır. Prezident isə xalqın birinci xidmətçisi olduğunu bir daha bəyan etdi. Budur Azərbaycanı dünyada, regionda fərqləndirən cəhət.

Ölkə Prezidenti bir daha qeyd etdi ki, hakimiyyətin apardığı siyasətin prioritet istiqaməti Azərbaycan xalqının rifahına, problemlərin yüksək səviyyədə həllinə yönəlmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

İcazə verin Sizin hər birinizin, bütün qəbələlilərin adından ölkə başçısı möhtərəm cənab İlham Əliyevi əmin edim ki, biz həmişə olduğu kimi vətənimizə, dövlətimizə, xalqımıza sədaqətlə xidmət edəcək, 2016-cı ili də böyük uğurlarla başa vuracağıq.

# Beynəlxalq aləmdə ana dilinin əhəmiyyəti və bizim ana dilimiz

21 fevral 1952-ci ildə Pakistanda benqal dilinin qadağan edilməsinə etiraz olaraq keçirilən aksiyada polis və silahlı qüvvələrin müdaxiləsi nəticəsində 4 nəfər şəhid olub. Banqladeş müstəqil dövlət olduqdan sonra bu ölkənin nümayəndələri fevralın 21-nin məhz həmin şəhidlərin xatirəsinə ehtiram əlaməti kimi Ana dili günü adlandırılması barədə Birləşmiş Millətlər Təşkilatına müraciət ediblər. Birləşmiş Millətlər Təşkilatının tövsiyyəsi ilə YUNESKO-nun Baş Konfransında 21 fevral Beynəlxalq Ana dili günü elan olunub və üzv ölkələrə bildirilib ki, həmin gün məktəblərdə universitetlərdə və sair təşkiatlarda ana dilinin əhəmiyyəti ilə bağlı tədbirlər, konfranslar, seminarlar keçirilsin.

Dünyada məhv olmaq təhlükəs ilə üzləşən dillərin qorunması məqsədilə hər il keçirilən Beynəlxalq Ana dili günü hər kəsə öz doğma dilinin varlığını hiss etmək, onunla qürur duymaq, onu qorumaq, inkişaf etdirmək hüququ olduğunu bir daha xatırladır. Ən sadə şəkildə desək, dil ünsiyyət vasitəsidir, bununla birlikdə millətin varlığını sübut edən amillərdən biri, bəlkə də birincisidir. O, hər hansı bir xalqın varlıdığının təzahürü, onun milli sərvəti, qan yaddaşıdır. Xalqın taleyi, onun mənliyi, mənəviyyatı və mədəniyyəti olan dil cəmiyyətin təşəkkülü və inkişafı ilə birlikdə yaranır, tərəqqi edir. İnsanın təkamülündə ana dilinin rolu böyükdür. Bir millətin dilinin dövlət dili statusuna yüksəlməsi tarixi hadisə, milli dövlətçiliuk tarixinin qızıl səhifəsidir. Bu millətin millət olaraq varlığının təsdiqidir. Çünki dilin dövlət dili statusuna yüksəlməsi millətin öz taleyinə sahibliyinin, dövlət qurmaq və qorumaq qüdrətinin, eyni zamanda dilinin zənginliyinin sübutudur.

Bu gün planetimizdə minlərlə millət və etnik qrup sayı 200-ə yaxın olan dövlətlərin bayrağı altında cəmləşib. Bu dövlətlərin rəsmi dövlət dillərinin sayı isə 70-ə qədərdir. Belə olduqda hər hansı bir millətin dilinin dövlət dili kimi təsdiq edilməsinin əhəmiyyəti başa düşüləndir. Bu mənada dilin dövlət dili olması qürur gətirən hadisədir. Azərbaycan dili bu tarixi hadisəni yaşayıb.

Azərbaycan dili öz varlığını qorumaq üçün ardıcıl mübarizə aparmış, mənsub olduğu xalqla birlikdə inkişaf edərək çoxsahəli dünyəvi elmi dil səviyyəsinə yüksəlmişdir. Bu işdə bədii söz ustalarının, ədəbiyyatımızın korifeylərinin əvəzsiz xidmətləri vardır. Onlar ümumxalq dilinə həmişə fəal münasibət bəsləmiş, onun zənginləşməsi və hərtərəfli inkişafı üçün böyük fədakarlıq göstərmişlər.

Azərbaycan dilinin tarixi, onun inkişafı və zənginləşdirilməsi yolları araşdırılarkən belə bir fakt aşkarlanır ki, İ. Həsənoğlu, İ. Nəsimi, M. Fizuli, Ş. İ. Xətai, M. P. Vaqif, M. F. Axundov, Sabir və sair söz sənəti ustaları məhz doğma Azərbaycan dili zəminində yüksəlmişlər. Azərbaycan dili dünya dilləri içərisində öz gözəlliyi, öz avazı ilə seçilən, uzaq tariximizi bu gün də yaşatmağa kömək edən bir dildir. Dilimiz milli sərvətimizdir. Hər şey ana dilindən başlayır və o ana südü qədər müqəddəsdir. Ümumilli lider Heydər Əliyev ana dilimiz azərbaycan dili haqqında demişdir «Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm» Heydər Əliyev Azərbaycanda hakimiyyətdə olduğu bütün dövrlərdə istər sovet dönəmində, istərsə də müstəqillik illərində ana dilimizin qorunması, dövlət dili səviyyəsinə yüksəlməsi üçün böyük fədakarlıq göstərmişdir.

Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi həmin dövr üçün çox əhəmiyyətli hadisə idi. Müstəqillik ərəfəsində və onun ilk illərində dilin adının dəyişdirilməsi, onunla bağlı ənənələrin nəzərə alınmaması indi də təəssüf doğurur. Həmin illərdə Azrbaycan dilinin adı xalqın rəyi nəzərə alınmadan (ümumxalq rəy sorğusu-referendum keçirilmədən) türk dili adlandırılması xalqın əksər hissəsi tərəfindən rəğbətlə qarşılanmamışdı. Dogrudur Azərbaycan dili türk dilləri qrupuna daxildir, ancaq Türkiyə türkcəsi ilə tam eyni deyildir. Tarixi-coğrafi şərait bu dillər arasında müəyyən fərqlərin əmələ gəlməsinə səbəb olmuşdur.

Buna görə də 1995-ci ildə müstəqil dövlətimizin ilk Konstitusiyası qəbul edilərkən ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə görkəmli dilçi alimlərin bədii söz ustalarının da rəyi nəzərə alınmaqla dövlət dili Azərbaycan dili kimi göstərildi. 1995-c ilin noyabrın 12-də xalqımız ümumxalq səsverməsi-referendum vasitəsilə dövlət dilinin Azərbaycan dili kimi təsbit olunmasına səs verdi. Beləliklə dövlət dilinin adı bərpa olundu. Bundan sonra hökumət səviyyəsində Ana dilinin inkişafı və qorunması istiqamətində əhəmiyyətli sənədlər qəbul edildi. 2002-ci ilin 30 sentyabrında «Azərbaycan Respublikasında Dövlət dili haqqında» Azərbaycan Respublikası Qanunun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi dünya azərbaycanlılarının Azərbaycn dili ilə bağlı milli mədəni ehtiyaclarının ödənilməsi istiqamətində daha bir addımdır. Bu sənəd ümummilli lider Heydər Əliyevin xalqımıza və onun dilinə təkənməz məhəbbətinrn qayğısının parlaq nümunələrindən biridir. Bu ənənələri ölkə Prezidenti İlham Əliyev uğurla davam etdirməkdədir. Dövlət başçısının müxtəlif vaxtlarda imzaladığı «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» və «Azərbaycan Milli ensiklopediyasının hazırlanması haqqında» sərəncamları və bu istiqamətdə görülən işlər də dilimizin inkişafına qayğının təzahürüdür. Ana dilimizi qorumaq, inkişaf etdirmək bizim hər birimizin borcudur.

**Qüdrət SƏMƏDOV.**